**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.38**
**UOT: 821.512.161**

# NƏDİMİN "DİVAN"INDA OBRAZLAR SİSTEMİ

**Aygün YUSUBOVA**[*]

***Açar sözlər:*** *Nədim, divan şairi, obrazlar, sultan, sədrəzəm*

## XÜLASƏ

Osmanlı tarixinə "Lalə dövrü" adı ilə daxil olan (1718-1730) on iki illik bir dönəm Sultan III Əhmədin (1703-1730) səltənətinin ikinci mərhələsinə təsadüf edir. Dövrün sədrəzəmi Damad İbrahim Paşa tərəfindən 21 iyul 1718-ci il tarixində Avstriya ilə Osmanlı dövlətləri arasında imzalanmış Pasarofça sülh müqaviləsindən sonra Qərb ilə keçmiş əsrlərdən miras qalan soyuq münasibətlərdə yavaş-yavaş isinmə başlanmışdır. Lalə dövrü Osmanlı tarixində Avropa ilə siyasi, iqtisadi və mədəni əlaqələrin yaradıldığı və inkişaf etdirildiyi tarixi bir mərhələdir. Həyatın demək olar ki, bütün sahələrinə dövrün tələbinə uyğun yeniliklər gətirilsə də, klassik və ənənəvi dəyərlər qorunmuş, incəsənətdə ənənə daxilində yeniliklər edilmişdir. Bu dövrdə Osmanlı dövlətinin xarici siyasətində olduğu kimi daxilində də bir sabitlik hökm sürmüşdür. Türk incəsənətinin və bədii zövqünün daha da inkişaf etdiyi, həmçinin Qərb ənənələrinə uyğunlaşdığı bu dövrü simvolizə edən divan şairi isə Əhməd Nədimdir.

Nədimin "Divan"ına nəzər yetirdikdə müxtəlif zümrələrə məxsus obrazlara rast gəlirik. Xüsusilədə şairin qəsidə və qitələrində müşahidə etdiyimiz insan tiplərinin əksəriyyəti tarixi şəxsiyyətlərdir. Onu da qeyd edək ki, türk divan ədəbiyyatı ənənəsində təsvir olunan obrazlarla, cəmiyyətin yüksək təbəqəsi sayılan saray və ətrafı ilə başlayaraq orta təbəqəyə mənsub məmurlar, hətta saray musiqiçiləri, təriqət şeyxlər ivədönəm şairlərinə qədər çox zəngin obrazlar qalereyası yaratdığını müşahidə edirik.

### Giriş

Zamanı, sənət aləmində bir süzgəcə bənzədən görkəmli ədəbiyyatşünas Mehmet Fuad Köprülüzadənin sözləri ilə desək, müəyyən dövrlərdə müəyyən zövqlərin bəhs edildiyi, canlandırıldığı, hətta böyük qiymət verildiyi bir çox əsərlər, zaman süzgəcindən süzülə-süzülə keçərək hər dövrdən yadigar olaraq özündə bir neçə qətrə saxlayır. Lalə dövrü deyincə mütləq Sadabadı xatırlayır, Sadabadı xatırlayınca isə istər-istəməz Nədimi düşünürük. Çünki Ladə dövrü və Sadabad Nədimin "Divan"ında zamanın süzgəcindən keçmişdir. Başqa bədii sənət nümunələri, təzkərələr, rəsmi və tarixi sənədlər kimi bu divan da bizə o dövrün mədəni həyatının güzgüsüdür. Onun daxilini, zövqünü bizlərə ancaq Nədim hiss etdirə bilmişdir. Məhz bu səbəbdən də Nədim böyük şairdir. (1, s.12) Nədim yaşadığı dövrü, vurğunu olduğu İstanbulu, nümayəndəsi olduğu xalqının gündəlik həyat tərzini şeirlərində yaşadan bənzərsiz bədii təxəyyülə malik, zövq və əyləncəyə meyilli yenilikçi bir divan şairidir.

### Nədim "Divan"ında obrazların təsviri

Divan ədəbiyyatının təşəkkül dövründən başlayaraq son dönəminə qədər ən geniş şəkildə tərənnüm olunan obrazlardan birincisi isə padişahlar olmuşdur. XVIII əsrdə Nədim də bu ənənəyə sadiq qalaraq "Divan"ında dövrün sultanı III Əhmədin də vəsfinə geniş yer ayırmışdır.

[*] *Filologiya üzrə fəlsəfə doktoru, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
*E-mail: aygunyusubova74@gmail.com*

"Padşah" və "sultan" sözləri Yaxın və Orta Şərq coğrafiyasında çox geniş əraziyə hökmranlıq edən imperatorların daşıdığı titullar idi. Başlanğıcdan bu yana Osmanlı dövlətində ali hökmdarlara verilən bu ünvanlarla yanaşı, eyni mənanı ifadə edən müxtəlif adlara da rast gəlirik. Əlbəttə ki, bu ifadələr zaman keçdikcə dövrə və siyasi tərcihə əsasən dəyişikliyə uğramışdır.

Məlumdur ki, qədim türklərin inancına görə, hökmdar Tanrının yer üzərindəki kölgəsi, onun iradəsini həyata keçirən canişinləridir. Məhz bu səbəbdən də hökmdara qarşı çıxmaq Uca yaradanın hökmünə asi olmaq kimi qəbul edilirdi. Məhz bu səbəbdən də türklərdəki iqtidarın müqəddəslik anlayışı daha sonraları da islamiyyətlə birlikdə inkişaf etmiş və cahan hökmdarı məfkurəsinə çevrilmişdir.

Osmanlı saray ənənəsində də gələcəyin sultanları olacaq şahzadələrin yetişdirilməsi böyük əhəmiyyət kəsb edirdi. Şahzadələr dörd yaşından etibarən xüsusi məktəblərdə seçilmiş müəllimlər tərəfindən təhsil alırdılar. Onlar ilk dərslərinə Qurani-Kərimlə başlayırdılar. Dini elmləri, türk dili ilə yanaşı, digər dilləri, xüsusilə ərəb və fars dillərini də mükəmməl öyrənirdilər. Bundan əlavə, coğrafiya, astronomiya, riyaziyyat, məntiq, kimya və s. kimi dəqiq elmlərlə yanaşı, ədəbiyyata, sənətə də yaxından maraq göstərirdilər. Bütün bunlarla başqa, döyüş sənətinin bütün incəliklərinə yiyələnirdilər.

Qeyd etdiyimiz kimi, dövrün sultanı 23-cü osmanlı padşahı III Əhməd müharibə meydanlarını sevməyən və bu səbəbdən hərbi səfərlərə getməyən, bunun əksinə olaraq bədii ədəbiyyata, sənətə, musiqiyə meyilli incə və həssas ruhlu hökmdar idi. "Nəcib" təxəllüsü ilə şeirlər yazan, xəttatlıq sənətinə yaxından maraq göstərən bir sultan olaraq o, İstanbulun müxtəlif səmtlərində Kağıthanə, Beşikdaş, Rumeli hisarı və s. yerlərində layihələri Avropada hazırlanmış saraylar, köşklər, bağlar, çeşmələr inşa etdirmişdir. Bir çox alim, şair və sənətkarlara ehtiram göstərmiş, onları himayə etmiş və zamanla mükafatlandırmışdır. Mənəvi dəyəri yüksək olan əsərləri tərcümə etdirərək elm və sənət aləminə qazandırmışdır. Nadir əsərləri qorumaq, elmi inkişaf etdirmək üçün kitabxanalar açdırmışdır.

XVIII əsrin Arpaeminizadə Sami, Nahifi, İzzət Əli Paşa, Neyli, Salim, Seyyid Vehbi, Vahid Mahtumi, Şeyxülislam İshak, Kami və s. kimi şairlərin yaradıcılığında Sultan III Əhmədə həsr etdikləri şeirlərə rast gəlirik.

Nədimin şeirlərində də Sultan III Əhməd, uca, şanlı, səxavətli, lütfkar, seçilmiş insan, xeyrxah, gözəl əxlaqlı, kərəm sahibi, ədalətli bir hökmdar kimi təsvir edilir. Nədimə görə, dövrün sultanı dövlətin kamillik günəşi, bəzəyidir. Onun təşrifi hamını və hər yeri şərəfləndirir. Canlara can qatan sultan, ölkənin sabitliyini, güvənini ədaləti ilə təmin edər. Onun dövləti və müqəddəs varlığı din-dövlət işlərini nizamlayır. Ehsanlarıyla kədərli günlər keçir, kədərli saatlar sona çatır. Sultanın sarayı, dünyada tayı-bərabəri görülməmiş bir sevinc bağçasıdır. O, müzəffər şahlar şahı, cahanın və zamanın hakimidir.

*Denür sahib-kıranın çardır yanında şəmşiri*
*Görüb şəhzadəganı anladım bu razı-pünhanı (2, s.58)*

Bu beytdə şair hökmdarı "sahib-qıran" adlandırır. Orta əsrlər Şərq astroloqları hər zaman uğur qazanan, üstünlük əldə edən, qüvvətli sərkərdə, hökmdarların məhz bu bürc altında doğulduğu təsəvvür edirdilər. Dini düşüncəyə görə də, bu xoşbəxt bürcün himayəsində olan hökmdarların əsas ali vəzifəsi isə mütləq hakimiyyətin yaratdığı fürsətdən istifadə edərək dövlətini ədalətlə idarə etməkdir. "Sahib-qıran"təyini ilə fərqləndirilən padşahların yanlarında dörd qılınc saxladıqları və III Əhmədin də məhz belə bir sultan olduğu qeyd olunmuşdur.

*Sayəyi-ədlində, ey şahən-şahı ali-nicad!*
*Hənd ü şükr olsun ki, aləm sərtasər məsrur ü şad.*
*Səhni-gülşən dəxi təşrifinə olsun bər-murad,*
*Lalə fəsli eyd hənqamı bahar əyyamıdır.(2,s.228-229)*

Verilmiş bu şərqi nümunəsində Nədim Sultan III Əhmədə işarə etməklə: *"Şükürlər olsun ki, uca soylu şahlar şahının ədalətinin kölgəsində aləm, dünya şad və sevinclidir. Bu ədalətin kölgəsində nəinki insanlar, hətta gül bağları da nəsibini almışdır. Lalə mövsümü qədəmləri ilə elə-obaya bayram gəlmişdir"*, – deyir. Beləcə, bu ədalət sayəsində insanlar, bahar sevinci yaşanmağa başlamışdır.

*Aman, şövkətli hünkarım, bu qəmlə biz nələr çəkdik*
*Gecə-gündüz işimiz nalə vü ah u fəqan oldu.(2, s.208)*

Nədim bu beytində isə, şövkətli hökmdarın xəstəliyə tutulması səbəbiylə kədərləndiyini və gecə-gündüz ah çəkərək fəryad etdiyini ifadə etmişdir.

*Hər nəfəs ab u havası cana canlar qatmada,*
*İntisabınla cahana naz ü nahvət satmada,*
*"Kanqı gün təşrif edər şahım", – deyü can atmada,*
*Gəl Şərəfabadı gör, şövkətli hünkarım, hələ.(2, s.243)*

*"Ey həşəmətli sultanım, Şərəfabada gəl, gör ki, buranın suyu və havası hər nəfəsə nəfəs, hər cana can qatmaqdadır. Yəni yaşama gücünü artırır. Sənə mənsub olduğu üçün qururludur, naz edir. "Şahım nə vaxt gələcək", – deyə can atmaqdadır".* Şərqi nəzm şəkli ilə qələmə alınmış bu nümunədə şair, Sultan III Əhmədi Şərəfabad qəsrinə dəvət edir.

Mənbələrdə verilən məlumatlara əsasən, Şəmsi Əhməd Paşa tərəfindən Sultan III Murad üçün inşa edilən və "Şəmsi Paşa qəsri" adlandırılan bu memarlıq abidəsinin bir neçə dəfə restavrasiya edildiyi və hər dəfə də adının dəyişdirildiyi qeyd olunmuşdur. Sultan III Əhməd dövründə də əsaslı təmir olunan qəsrin yenə də adı "Şərəfabad" olaraq dəyişdirilmişdir. Onu da qeyd edək ki, mənbəyi Kayışdağı ətəyindən gələn və Üsküdara sarı uzanan su əvvəllər bu qəsrin bağına axıdılmışdır. (3, s. 99-114). Bəzi mənbələrdə isə bu abidənin Damad İbrahim Paşa tərəfindən Sultan III Əhməd şərəfinə tikdirildiyi də qeyd olunmuşdur. (4, s. 339)

*Çünki Sadabadı seyr etdin, Şahənşaha buyur,*
*Izz ü dövlətlə Çırağanın dahi seyranına.(2, s.91)*

Nədimin Sadabadı sultan III Əhmədə tərif edən qəsidəsindən götürülən bu beytdə isə şair bu möhtəşəm məkanı gəzib-dolaşdıqdan sonra şahlar sahını Çırağan əyləncələrinə dəvət edir. Sadabad 1722-ci ildə Sultan III Əhmədin səltənəti dövründə Kağıthanə dərəsinin Halicə axdığı ərazidə inşa etdirilmiş bir qəsrdir. Daha sonra bu qəsr o qədər məşhur olmuşdur ki, o ərazi tamamilə Sadabad adlandırılmışdır. Yüzlərlə saraylar, köşklər, qəsrlər, hovuzlar, çeşmələr, fəvvarələr tikilmiş, bağ və bağçalar salınmışdır. Beləcə, Sadabad bir qəsrin, bir ərazinin adı olmaqdan çıxıb, yaz aylarından etibarən noyabr ayına qədər davam edən bir əyləncə mədəniyyətinin formalaşmasına səbəb olmuşdur. Çırağan isə o dövrdə lalə bağçalarında təşkil olunan gecə şənliklərinə verilən addır. O dövrdə Damad İbrahim Paşanın da bağında 500 min lalə soğanı vardı. Baharda lalələr açdığı zaman sədrəzəm bu gözəlliyi Sultana göstərmək məqsədilə onu bağına dəvət edərdi. Bəzən də boş qalmış yerlərə digər bağçalardan toplanan lalələr şüşə qablara qoyularaq bu boşluqlara yerləşdirilirdi.. Bağçalarda lalələrin arasına eyni ölçülərdə şamlar düzülür və gecə vaxtı ətraf bu şamlar vasitəsilə işıqlandırılırdı. O dövrdə ənənə halını almış bu maraqlı mərasim avropalıların da diqqətini cəld etmişdi.

*Şehriyaran ali-əsbindən çıxan bərgi-cahan*
*Dağ yaxmışdır sipihrin cəbheyi-Keyvanına.(2, s. 89)*

*"Sultanım, sənin atının nalından çıxan qığılcımın şimşəyi göydəki Keyvan (Zühəl – Saturn) səyyarəsinin alnını dağlamışdır".* Yeddinci fələkdə yerləşən rəngi qaraya yaxın, yaşıl olan Keyvan

yer üzünə ən uzaq səyyarədir. Ən uğursuz səyyarə hesab olunduğundan divan şeirində qəm, kədər verən, bədbəxtlik gətirən mənasında istifadə olunmuşdurr. Bu beytdə “keyvan” cəbhədə rəqib anlamını ifadə edir.

Bu beytdə Sultan III Əhmədə “şehriyara”, – deyə xitab edən şair onu digər əsərlərində mədh edərkən əsasən *“padşah”, “şahənşah”, “sultan”, “xaqan”, “hünkar” (hökmdar), “xosrov”, “şah”, “xan”, “xüdavəndigar”, “sahib-kıran”, “əfəndi”* və s. ifadələrdən istifadə etmişdir.

Nədim yaradıcılığına nəzər yetirdikdə onun qəsidələrindəki iki ən əsas məmduhunun, şeirlərinin iki ən böyük qəhrəmanının Sultanı III Əhməd və sədrəzəm Damad İbrahim Paşa olduğunu görürük. Onu da qeyd etmək vacibdir ki, şair klassik şeir ənənəsinə sadiq qalaraq qəsidə və qitə janrlarında qələmə aldığı əsərlərində real həyatdan alınan səhnələri canlandırıb, məmduhlarına xas xüsusiyyətləri təqdim etməklə yanaşı, ideal hökmdar və ideal vəzir obrazı yaratmağa da çalışmışdır. *“Sultan Əhmədin tərsanə ziyarəti və üç döyüş gəmisinin dənizə çıxarılması münasibəti ilə təşkil edilmiş mərasimdə iştirakı, onu canlı həyat səhnələri içində təsvir etdiyini görürük. Eyni şəkildə İbrahim Paşanı da dəniz üzərindəki uzaq hədəfə atəş açması, gənc xanımı Fatimə Sultanın cami inşa etdirməyə təşviq etməsi, “Fərəh bağı”na ad qoyması kimi qısa səhnələr şəklində təsvir olunsa da, həqiqidir”.* (5, s. 20-60)

Osmanlı dövlətinin idarə sistemində vəzir sultanın vəkilidir. İlk dövrlərdə sultanın yalnız bir vəziri vardı və o da ənənəvi olaraq elm adamları arasından seçilirdi. XIV əsrdən– Sultan I Muradın dövründən etibarən vəzirlərin sayı artırılmış və birinci vəzirə “vəziri-azam”, yəni “sədrəzəm” adı verilmişdir. III Əhməd 27 illik hakimiyyəti müddətində 15 sədrəzəm dəyişdirmişdir. Onun hökmdarlığı dövründə ən uzun müddətli sədrəzəm isə Damad İbrahim Paşa olmuşdur. O, təbiəti etibarı ilə Sultan III Əhməd kimi müharibə və onun törətdiyi maddi və mənəvi fəlakətlərdən ehtiyat edən, əyləncəyə meyilli, incə ruhlu, kübar bir şəxsiyyət idi. Bu dövrdə divan şairləri tərəfindən Sultan III Əhmədə həsr olunan qəsidələrin demək olar ki, böyük əksəriyyətində İbrahim Paşanın mədhi də yer almışdır. Bu fakt Sultan III Əhməd ilə Damad İbrahim Paşanın çox yaxın olduqlarının və dövrün divan şairləri tərəfindən çox sevildiklərinə dair bir sübutdur.

Nədim “Divan”ında, Damad İbrahim Paşaya həsr olunmuş 21 qəsidə (bu qəsidələrin 19-u İbrahim Paşaya, 2 qəsidə isə Sultanı III Əhməd və Damad İbrahim Paşaya müştərək yazılmışdır) və 23 qitə mövcuddur. Şair şeirlərindəsədrəzəmi mədh edərkən əsasən *“sadr”, “asaf”, “hıdiv”, “destur”, “vəziri azam”, “vəkili saltanat”*və s. ifadələrindən istifadə etmişdir.

*Sən ol hədivi-cahansan ki, əhdi-lütfündə*
*Nigahbanlıq edər aşiyanı-bülbülə mar.*

*Sən ol yeganəyi-dövrü zamanəsən kim sənin*
*Nazirin olmadı meşhudı-didəyi dəvvar.(2, s.47)*

Verilmiş bu beyt Nədimin İbrahim Paşaya həsr etdiyi “Hamamiyyə”sindəngötürülmüşdür. “*Sən cahanın elə bir vəzirisən ki, təmin etdiyim əmin-amanlıq, nizam-intizam sayəsində hətta ilan bülbülün yuvasında keşik çəkir. Sən həm də yeganə insansan ki, indiyə qədər dövürlərin gözləri sənin bənzərinə rast gəlmədi”.* Şair bu beytlərlə tarix səhifələrində ibrətli hadisələrlə xatırlanacaq vəzirin əsasən dövlət işlərindəki səriştəsini, məharətini vurğulamışdır.

*Fənni kərəmin fazili-allaməsi sənsən*
*Vallah sənə şagird olamaz Fazl ilə Cəfər (2, s. 111)*

Bu nümunə şairin halva gecəsi söhbətində iştirak edən Damad İbrahim Paşanı mədh edən qəsidəsindən alınmışdır. Sədrəzəmə xitab edərək:*“Xeyirxahlıq, səxavətlilik elminin uca əxlaq sahibi, alimi sənsən.Vallah, bu sahədə Fazl və Cəfər belə sənə şagird ola bilməz.”,*– deyir. Məlumdur ki, Abbasi dövlətinin hakimiyyəti dövründə Harun ər-Rəşid tərəfindən Yahya İbn Xalid əl-Bərməki vəzir

təyin olunur. Sonradan vəzirlik məqamına yüksələn Yahyanın Fazl və Cəfər adlarındakı iki oğlu səxavəti, kərəm və ehsanları ilə xalq arasında böyük nüfuz sahibi olmuş, zamanında ədibləri, alimləri, musiqiçiləri və şairləri himayə etmiş və qorumuşlardır. Bu beytdə isə Nədim dövlət idarəsi baxımından böyük səlahiyyətlərə malik olan sədrəzəmin eyni zamanda xeyirxah, səxavətli olduğunu, elm və sənət əhlini qoruduğunu, mütərəqqi fikirləri ilə seçilən bir vəzir olduğunu ifadə etmişdir.

*Yeganə sıhrı güzini xəlifətül-islam*
*Vəziri-azam u əkrəm müşiri pak- tebar. (2, s.46)*

Sədrəzəm İbrahim Paşa, 88-ci İslam Xəlifəsi olan padişahın yeganə kürəkənidir. Ucalardan uca və soyu təmiz bir vəzirdir. Bu beytlə əlaqədar onu da qeyd edə bilərik ki, 1714-cü Venesiyalıların Qaradağlıları üsyana təşviq etdikləri üçün III Əhməd Mora üzərinə hərbi səfər elan etmişdi. Orduya rəhbərlik sədrəzəm Silahdar Əli Paşaya həvalə edilmişdi. Bu döyüşdə Osmanlı ordusu Karlofça müqaviləsi ilə Venesiyaya vermək məcburiyyətində qaldıqları bütün qalaları geri almışdılar. Ancaq Alman imperiyası Karlofça müqaviləsinə zamin olduqlarına və Venesiyadan alınan torpaqlar geri verilməyincə sülhü dəstəkləməyəcəklərini bildirdi. Bu qarşıdurma Osmanlı dövləti ilə Alman-Avstriya imperiyası arasında müharibə ilə nəticələndi. Petervanda baş tutan döyüşdə Silahdar Əli Paşa şəhid oldu. Onu da qeyd edək ki, Sultan III Əhməd dörd yaşlı qızı Fatma Sultanı Silahdar Əli Paşa nişanlamışdı. Silahdar Əli Paşanın ölümündən sonra III Əhməd 13 yaşlı qızı Fatma Sultanı 50 yaşındakı Nevşəhərli İbrahim Paşa ilə evləndirmiş və beləcə İbrahim Paşa həm sədrəzəm, həm də Sultan III Əhmədin kürəkəni (damadı) olma şərəfinə nail olmuşdur. Damad İbrahim Paşa eyni zamanda "*Osmanlının türk soyuna mənsub olan nadir sədrəzəmlərindəndir və demək olar ki, bir hökmdar kimi ölkəni öz siyasəti ilə idarə etmişdir. 218 sədrəzəm içərisində fərqli xarakterə sahib olanlardan biridir"*( 6, s.82).

*Ehali izz ü dövlətdə reayaəmn ü rahatda*
*Hünər ərbabı rif`atdə cahan yekparə nurani.(2, s. 96)*

Bu beyt Nədimin Sədrəzəm İbrahim Paşaya həsr etdiyi qəsidəsindən götürülüb. *"O dövrdə əhali xoşbəxt idi, imperiyanın ərazisinə yerləşən azsaylı xalqlar da əmin-amanlıq içində rahat yaşayırdılar. Sənət adamlarına rəğbət vardı, onlara dəyər verilirdi. Bu səbəbdən də dünya nurlu, işiqlı və parlaq idi".*

*Sənsən o cahan-sədri-fələk-payə ki, daim*
*Dərgahına ikbal ü şərəf pərdə-güşadır.(2, s. 93)*

Verilmiş beytdə şair, Damad İbrahim Paşaya:*"Sən dəyəri fələk kimi uca, məqama cahan qədər böyük, elə bir sədrəzəmsən ki, sarayının qapı pərdəsini gəlib gedənlərə xoşbəxtlik və şərəf adlı pərdəçilər açmaqdadı",–* deyir. Bu beytdə "pərdəçi" adlandırılan obraza da rast gəlirik. Pərdəçi o dövrdə Osmanlı dövlətinin saraylarında sultanların, vəzirlərin və digər yüksək vəzifəli məmurların otaqlarının qapı pərdəsi yanında rəsmi olaraq duran və içəriyə icazəsiz daxil olmalarına icazə verməyən vəzifəyə verilən addır. Bu obraz Nədimin şeirlərində "pərdə-dar" və "pərdə-güşa" sözləri ilə ifadə olunmuşdur.

Tarixi mənbələrin əksəriyyətində "Lalə dövrü" əyləncə, zövq səfa dövrü kimi əks edilir. Görkəmli tarixçi Ali CanibYöntem məhz bu məsələdən bəhs edərək yazır: *"İbrahim Paşanın nikbin əhval-ruhiyyə aşılaması üçün etdiyi hərəkətləri zövq və əyləncəyə düşkünlük hesab edənlər onun sayəsində xəzinənin dolduğunu və sonradan edilən müharibələrdə əsla maddi çətinliyin olmadığını, silahların yetərincə olduğunu araşdırmamışlar.*(7, s.461)

*Asafı-İsgəndər-ayin ü hakimi hurdə-bin*
*Faik olmuş zatı Xaqani vü xaqaan üstünə. (2, s.29)*

Yuxarıdakı nümunə Nədimin sədrəzəm Şəhit Əli Paşaya həsr edilmiş qəsidəsindən götürülüb. *"O, İsgəndər ənənəsinə sahib olan bir sədrəzəmdir. Diqqətindən heç bir şey yayınmayan bir filosofdur. Şairlikdə Xaqanidən, qüdrət baxımından da xaqanlardan üstündür".*

*Ol sipeh-saları Kisri-şan ki, istiksar edər*
*Bir sipahi-bəndəsin taxtı-Sipahan üstünə (2, s.29)*

*"O Kəsralar qədər şanlı sərkərdə elə bir qüdrət sahibidir ki, bir sipahi köləsini belə zəbt etmək üzərə olduğu Təbəristan ölkəsinə göndərməyi belə çox görür".* Sədrəzəm Əli Paşaya həsr edilən qəsidədən götürülən bu nümunədə "kisir" sözü mənbələrdə verilən məlumatlara əsasən, padşahlar padşahı mənasını verən "xosrov" kəlməsinin ərəbləşmiş şəkli olub, Nuşirəvanın ləqəbidir. Sonradan bütün İran şahlarına "kəsra" deyilməsi adət halını almışdır. (8, s. 419) Taberistan, İranda Mazandaran, Gülüstan və Gilan əyalətlərini əhatə edən tarixi yerin adıdır.

*Əxtəran ta ki, edib ceyşi zalam üzrə hücum,*
*Keçirə kəhkəşan gərdəni gərduna rəsən.*

*Ola mahı-nevi şəmşirine daim matla*
*Kalayı -düşməni-din üzrə olan bürcü bədən.(2, s.27)*

Sədrəzəm Əli Paşaya həsr etdiyi növbəti qəsidəsində şair:*"Ulduzlar qaranlığın əsgərlərinə hücum etdikcə Kəhkəşan (gecələr səmada ağ yol şəklində görünın ulduzlar topası) fələyinin boynuna ip saldıqca, Əli Paşanın yeni ay kimi olan qılıncına, din düşməninin qalasının bürcü və bədəniitaət etsin",* –deyir.

Nədimin "Divan"ında yuxarıda verilmiş nümunələrdə olduğu kimi hərbi sahəyə və ya hərbi statusu olan şəxslərə aid olan ifadələrə də rast gəlirik. "Divan"da daha çox *"sərdar", "sər-əskər", "sipeh-salar", "sipeh-dar", "cünd", "ceyş", "sipah", "sipahi", "sipah-əndaz", "şir"* və s. ifadələrlə öz əksini tapmışdır.

*Zuri-bazuyu cəladət qüvvəti-qəlbi-zəfər,*
*Qaflar taqət gətirməz həmləyi-şiranına.(2,s.88)*

*"Əsgərlərin coşğuyla etdiyi hücumlar ortalığı yerlə bir edər. Bu hücuma Qaf dağları belə tab gətirməz".* Bu beytdə Nədim düşmən qarşısında cəsarətini, qorxmazlığını göstərən əsgərləri həmlələrinin təsiri səbəbiylə aslana bənzətmişdir. Məlumdur ki, divan şeirində Qaf dağları dünyanı əhatə edən aşılmasının mümkünsüzlüyünə inanılan dağlar silsiləsidir.

Məlumdur ki, Osmanlı İmperiyası dörd tərəfdən dənizlərlə əhatə olunmuşdu. Tez-tez hərbi səfərlər təşkil olunduğu üçün gəmiçilik sənayesi də inkişaf etməkdə idi. Bu səbəbdən imperiyanın bütün dövrlərdə olduğu kimi XVIII əsrdə də "kaptanı-dərya" vəzifəsi böyük əhəmiyyət kəsb edirdi. Bu dövrün kaptanı-dərya vəzifəsini Mustafa Paşa icra etmişdir. Gənc yaşlarından saray həyatına daxil olan Mustafa Paşa hələ Damad İbrahim Paşa sədrəzəm olmadan əvvəl darüssaadə ağası yazıçılığı vəzifəsində çalışdığı illərdə onunla tanış olmuş və sonradan onun qızı ilə evlənmişdir. Bundan sonra müxtəlif vəzifələrdə fəaliyyət göstərmişdi. 1721-ci ildə kaputanı-dərya Hoca Süleyman Paşanın vəfatından sonra Damad İbrahim Paşa tərəfindən bu vəzifəyə gətirilmiş və 1730-cu ilə Patrona Xəlil üsyanına qədər bu vəzifədə çalışmışdır. Mustafa Paşa dövrünün tanınmış simalarından hesab olunurdu. O zamanlar sarayda təşkil olunan mötəbər ziyafətlərdə, əyləncə məclislərində iştirak edər, eyni zamanda öz köşkündə məclislər təşkil edərək başda Damad İbrahim Paşa olmaqla sarayın yüksək vəzifəli dövlət məmurlarını bu yığıncaqlara dəvər edərdi. O, İstanbulun müxtəlif yerlərində əksəriyyəti dövrümüzə qədər gəlib çatmış dəyərli memarlıq abidələri inşa etdirmişdir. Nədimin də

"Divan"ında bu abidələrin bir neçəsindən bəhs olunmuşdur. Bunlardan biri də Kaputan Mustafa Paşanın mədhinə yazılmış Vəfa bağı haqqında kiçik həcmli məsnəvisidir.

*Kanı saki ol camı firuze-reng*
*Deyildir, deyildir zamanı dirəng, (2,s. 199)*

– beytli ilə başlayan bu məsnəvinin qısa məzmunu belədir:*"Bir gün yolum bir gül bağından düşdü, sanki heyrətdən ağlım başımdan çıxdı. Nə görsəm yaxşıdır, dünya başdan-aşağa bəzənmişdir. Amma bu o dünya deyil, başqa bir dünyadı. Bu dünyanın enişi-yoxuşu, sağı-solu şərəf, xoşbəxtlik, ucalıq və əzəmət doludur, gül, sünbül, lalə bağçaları ilə əhatə olunmuşdur. Bu bağları, bağçaları cənnəti belə qısqandıracaq şəklə kim gətirdi? Onu tikdirən və belə gül bağları ilə bəzəyən memar kimdir? Bura cənnətdir, yoxsa gülüstandır? Yoxsa təbəssüm satılan bir dükandır? Havası zəif vücudlar üçün sanki bir İsa, tamaşası isə məxmurluq yuxusunu aparan bir tiryək idi. Suyu xoruz gözü şərab kimi saf, qırmızı gülləri isə gəlinlərin həyası kimi idi. O uzun sərv ağacı ilə o geniş bağça sanki rahat və uzun bir ömrə oxşayır. Bahar fəsli o bağda o qədər coşmuş ki, elə təsəvvür edirsən ki, səmaya qədər aşıb daşmışdır.Gül fidanları sıraya düzülmüş, elə bilirsən ki, rəng və qoxu qatar-qatar gəlmişdilər. Gözəllər görünmək üçün necə bir-birlərini itələyirsə, gülüstan, bostan və bahar eyni şəkildə bir-birlərini itələyərək görünməyə çalışırdılar. Ülkər ulduzuna qədər çatan fəvvarələri var idi. Hovuzun kənarı sanki bir ay parçası idi. Mərmərlərdə o qədər rəng var idi ki, günəş onlarla müqayisədə gündüz yanan şam işığına bənzəyirdi. Bəs o zövq parçası toxuyan dəzgah, o böyük çeşmə, oradan axan sular da sanki göz nurunun ipləridir. Oradakı naxışlar, oymalar, qabartmalar məğrur bir gözələ qaş çatması necə yaraşırsa, oraya da elə yaraşırdı. Çeşmənin üst tərəfi fələkdən də yüksək kimidir. Elə bil ki, ayın üstünə göyərçin qonmuşdu. O bağda elə bir zərif sənət əsəri olan bir köşk var idi ki, qapısı və damı elə bil göylərə söykənmişdir. O köşkün üstün və seçkin vəziri, hünərli, işinin əhli, şanlı, göylər qədər uca məqam sahibi, ulduzlar qədər əsgərə hökm edən, müzəffər komandan, soyu etibara belə şərəf verən, ataları paşa və vəzir olan, dəbdəbə, namus və şöhrət sahibi, möhürlü üzüyünə qüdrət əmanət edilmiş olan, mümtaz Peyğəmbərimizin adaşı admiral Mustafa Paşa oturmuşdu".*

*Kapudanı mükərrəm sehri-efham kim semahatdə*
*Kefi-cudundan alır feyzi-cuşu lüccəyi-dərya.(2, s. 181)*

*"O möhtərəm kapitan o qədər səxavətlidir ki, dənizin əngin suları belə coşğunluq feyzini onun bu səxavətindən alır".* Verilmiş bu nümunə isə Üsküdarda Kaputan Mustafa Paşa tərəfindən inşa edlmiş çeşməyə həsr olunmuş tarix qitəsindən götürülüb. Bu qitə hal-hazırda fəaliyyət göstərən çeşmənin mərmərləri üzərinə həkk olunmuşdur. Nədim bu beyt vasitəsilə Paşanın səxavətli olduğunu vurğulamışdır.

*Kuh u dərya iki canibdən dər-ağuş eyləmiş*
*Sanki dərya dayəsi künhar isə lalasıdır.(2, s.115)*

*"Bu ev sahildə elə yerdə inşa edilmişdir ki, sanki dağ dayəsi kimi və dəniz də lalası (mürəbbisi)kimi iki yandan bu köşkü qucaqlamışdır".*Yəni dayəsi, mürəbbisi olan bu dağ və dərya onu təbiətin şıltaqlıqlarından qoruyur. Bu beytdə Kaputan Mustafa Paşaya aid dəbdəbəli evindən bəhs olunmuşdur. Onu da qeyd edək ki, Osmanlı dövründə lala, şahzadələrin kiçik yaşlarından etibarən təhsilivə tərbiyəsi ilə məşğul olan mürəbbilərə verilən addır.

Qeyd etdiyimiz kimi, Kapudan Mustafa Paşa III Əhmət dövrünün yüksək rütbəli şəxslərindən olub, Patrona Xəlil üsyanında qiyamçılar tərəfindən öldürülmüşdür. Lalə dövrü sülh dövrü olduğu üçün Paşa, heç bir hərbi səfərə çıxmamışdır. Əgər vəzifə müddəti sülh dövrünə təsadüf etməsəydi Kapudan Mustafa Paşa Osmanlı İmperiyasının hərbi sahəsində daha çox nailiyyətlər əldə etmiş olacaqdı.

Nədimin "Divan"ında adına da rast gəldiyimiz yüksək rütbəli dövlət məmurlarından biri də Patrona Xəlil üsyanı zamanı qəddarcasına qətlə yetirilmiş Mehmet Kethuda Paşadır. O, Damad İbrahim Paşanın kürəkəniolmuşdur.

*Kethudayı-şərəf-efzayı-vəziri-azam*
*Cümlə həp mədh ü senasiylə lebaleb efvah.(2, s.172)*

Verilmiş nümunədə şair:*"Vəziri-əzəmin ən şərəfli kəhyası Mehmet Kethuda Paşanın mədhi ilə tərifi ağızlardan düşməməkdədir"*, – deyir.Kəthudasədrəzəmin və ya dövlət məmurlarının rəhbərliyi altında işləyən vəzifəyə verilən addır. Sadarət kəthüdası vəzifəsi XVIII əsrdə Damad İbrahim Paşanın qərarı ilə sədrəzəmin müşaviri səviyyəsinə çıxarıldı. Yəni birinci dərəcəli səlahiyyətləri olan məmur oldu. Sədrəzəmin işlərini görmək üçün bir büro açıldı və bu büroya da sadarət kəthüdası rəhbərlik edirdi.

Nədimin "Divan"ında "dəftərdar" və ya "dəftəri-xaqani-əmini" ifadələrinə də rast gəlmək olar. *"Dəftərdar maliyyə işlərinə baxan ən böyük məmurlarına verilən addır. O, padşah malının vəkili sayılırdı. Dəftərdar maliyyə sahəsində fərman yazmaq, bəzi rütbələri təqdim etmək və hökmdara soruşmadan çox az miqdarda maaş artırmaq kimi bəzi imtiyazlara malik idi. Divanın əsas üzvlərindənidi".* (9, s.70)

Nədim o dövrdə dəftərdar olan İzzət Əli Bəyə iki şeir həsr etmişdir. Dəftərdar İzzət Əli Bəy vəzir və şair olan Damad Mehmed Paşanın oğludur. Sarayda dəftərdarlıq və sədarət baş məmurluğu vəzifələrini icra etmişdir.

*O mərdüm zadəyi-sulbi-əsalət əmri-şahiyə*
*Vəkalət eylədi sidq üzrə dəftərdara bir müddət.(2, s.124)*

*"O, əsalət sahibi, şahın əmri ilə bir müddət dürüst və doğruluqla dəftərdarlıq vəzifəsinə vəkalət etmişdir. Beləcə bu vəzifə Əli bəy ilə ucalmış və dəyərli olmuşdur".*

Şairin "Divan"ında qeyd olunan "dəftəri-xaqani-əmiri" ifadəsi isə imperiyanın bütün torpaq qeydiyyatları aparılan dəftərlərin saxlanıldığı yerə nəzarət edən ən böyük dövlət məmuruna verilən addır. Şair, o dövrdə çox böyük hörmət və izzət sahibi olan Dəftəri-xaqani-əmiri Mehmed Əfəndinin köşkü üçün bir qəsidə qələmə almışdır. Qəsidə bu beyt ilə başlayır:

*Ey aləmi-misalın səyyahı-hüşyarı,*
*Heç qəsr surətində gördünmü növbaharı?(2, s.117)*

Qəsidənin ümumi məzmunu belədir:*"Ey röyada görülən aləmin ağıllı, zəkalı səyyahı, bahar fəslini qəsr formasında gördünmü? Görmədinsə gəl tamaşa eylə, amma qətiyyən aldanma. O qızıl yaldızlı(qızıl suyuna çəkilmiş bəzkli) dam kənarı parıldayan hilal deyil. Kamal bəzəyənin uğurlu qələmi gözəllik və sənət, qəsrin damını qızıl yaldızlarla bəzəmişdir. O gözəl, könül alan və müşq qoxulu zəminə, yerə bax. Hələ naxış və rəsm dolu tavana tamaşa et. Sanki kürə formasında olan yer, dümdüz olmuş, Tibet aşağı düşmüş, Çin və Xütən də yuxarıya çıxmışdır (Xütən Şərqi Türküstanda yerləşən yer adıdır. Müşk ahularıyla məşhurdur). Qəsrin yerləşdiyi yerdə o qədər bolluq və şadlıq var ki, zamanın hüzura qovuşması, hətta durması mümkün olsaydı, hər arzusuna çatmış olan Cəmşidin o dadına doymama dövrü gəlib orada yerləşmişdir, – deyərdim. Parıldayan divarlarında naxışlar deyil, cənnətdəki çiçək bağçasının əksi oraya düşmüşdü.Torpağın, havanın, suyun və atəşin belə olduğunu bilməzdik.Bu dörd ünsürdən belə cənnəti yaradan kimdir? Bu ustad memar kimdir? Bir yanda elə bir lalə bağçası var ki, Cəmin (Cəmşidin) şərab qədəhlərindən meydana gəlmiş bir tarla hesab edilə bilər. O biri yanda elə bir gül bağçası var ki, onu Cəmin və ya qəsrin xəzinədarı zən edirsən. Bir tərəfdə də bir çeşmə var ki, bu günün Vassaf dəyərindəki Dəftəri-Xaqani-Əmini Mehmed Əfəndinin nəsirdəki ifadə qüdrətinin su kimi axmaqda olduğunu anladır (Vassaf XIV əsrdə yaşamış*

*məşhur tarıxçidir). Dünya şöhrətli ustad və əfəndi elə bir insandır ki, şərəf və şan fərmanının iftixar başlığı onun şəxsiyyəti ilə bəzənmişdir. O adının ortaya çıxması ilə dördüncü qat səmada olan İsanın kitabının "İncil"in şöhrətini təxirə çevirən Aləmlərin iftixarı Həzrəti-Məhəmmədin adaşıdır. O sirlər axıdan qələmini əlinə alanda elə bilirsən ki, Merkuri səyyarəsi üçə tamamlamaq (barmaqları birləşdirib alın və hər iki çiyin üzzərindəgəzdirməklə xaç çəkmə, Ata, oğul və müqəddəs ruhu təmsil edir) üçün Yupiterin yanına gəlir (Üçlük, üçə tamamlama xristiyanlar tərəfindən sonradan uydurulan Allaha şərik qoşma əqidəsidir). Mehmet Əfəndi elm baxımından Yupiterə bənzədilməkdədir. Onun əli ikinci şəxsi təmsil edir. Qələm də fələyin katibi olan Merkuri kimi bu ikilinin yanına gələrək sayı üçə qaldırmışdı. O Mehmet Əfəndinin qələmin sözləri dünyaya iri-iri incilər hədiyyə edir, Merkurinin dilini başa düşür, çünki onun kimi katib və şairdir. Yupiterində ağlı və fikri odur. Fələk qəsrinin sağlam divarı, günəşin qızıl kərpicləri ilə qaldığı müddətcə Allah onun qapısının qanadını Nədiminşeiri kimi uğurlu və daima açıq etsin".*

Divan ədəbiyyatında Yupiter və Merkuri səyyarələri dəftətdar sözü ilə birlikdə düşünülmüşdür. Ona görə ki, bu səyyarələr katiblərin və yazarların piri qəbul edilir. Hesab və kitab bu ifadələrlə xatırlanır. (10, s.487)

Nədim "Divan"ında Dar-üs-saadə ağası Bəşir Ağa üçün yazılmış üç mənzumə də mövcuddur. Onu da qeyd edək ki, "Dar-üs-saadə ağası" sarayın hərəm hissəsinə nəzarət edən və bilavasitə məsuliyyət daşıyan şəxsdir. Bəşir Ağa kiçik yaşlarından zənci kölə kimi İstanbula gətirilmişdir. Sonra zaman keçdikcə Misir, Kipir və Hicazda müxtəlif rəsmi dövlət vəzifələrinə təyin olunmuşdur. 1717-ci ildə istanbula gəlmiş və darüssadə ağası olmuş, ömrünün sonuna kimi (1746) bu vəzifədə çalışmışdı. O dövründə elm və maarif əhlinə himayədarlığı və xeyriyyəçiliyi ilə tanınmış nüfuzlu şəxslərdən idi. Osmanlı dövlərinin müxtəlif bölgələrində çeşmələr, kitabxanalar, mədrəsələr, təkkələr inşa etdirmişdir.

Aşağıdakı beytdə sultanın lütf edib onun uca məqamını öz möhtərəm gəlişi ilə daha da yüksəltməsindən bəhs edilir:

*Edib darussaadəmansıbı-alisini ehsan*
*Necə dəmdir edər zatiylə fəxr ol məsnədi-vala.(2, s.175)*

Divanda Osmanlı zamanında sədrəzəmdən sonra dövlətin dini işlərini icra edən şəxslərə də yer verilmişdir. Şair onlardan bəhs edərkən *"şeyxülislam", "naib", "müfti"* və s. dini terminlərdən istifadə etmişdir. Şeyxülislam o dövrdə dini məsələlərlə dair hökm verən, dini məhkəmələrə baxan ən yüksək statusuna malik din adamıidi. Naib isə şəriət məhkəmələrinin hakimlərinə verilən addır. Nədim onlardan böyük hörmət və ehriramla bəhs emişdir.

*Bəs ol dəsturi-Zişan naibi-xoş-tabı-danaya*
*Buyurdu ta ki, tarixi-dil-firibin edə müstəsna.(2,s.137)*

Bu beytdə şair naibin zəngin bilikli, xoş yaradılışlı və şərəfli bir şəxs olduğunu vurğulamışdır.

Onun seirlərində, yaşadığı dövrdə baş vermiş müəyyən hadisələrin təsvir olunması ilə yanaşı, insanların sosial statusu, vəzifə və təbəqələri ilə əlaqədar da ətraflı məlumat verilmişdir. Belə məlumatlardan biri də ticarət sahəsində müəyyən edilmiş qaydalara riayət etməyənləri cəzalandırmaq vəzifəsi ilə mükəlləf olan məmurlarla bağlıdır. Şair onlardan bəhs edərkən "müntəsib" sözündən istifadə etmişdir.

*Pəsənd müntəsibi asra etdi şeyxi bu gün*
*Üsul ilə fiçının ta dibində dər-çənbər. (2, s.66)*

Bu beytdə şair, müntəsibin şeyxi meyxanədə içki çəlləyinin içində görməsini və müəyyən edilmiş üsülla bağlamasını təsvir edir.

Bunlardan əlavə şairin bəzi mənzumələrində “mir” və “bəy (əmir)” sözlərinə də rast gəlirik. “Mir” əmr vermə səlahiyyəti olan, komandir, başçı və bəy mənalarını ifadə edir. Nədimin İzzət Əli Bəy üçün yazdığı bir qitəsində *“mübəccəl ayəti nuri-qiyasətmir İzzət kim”* və ya *“əmiri-kişvəri-əndişə kim halli-məanidə”* ifadələrinin yer aldığıbeytlərdə “mir” və “əmir” kimi sözlərdən istifadə etdiyini görürük.

Bütün bunlarla yanaşı, Nədim “Divan”ında “kaim-makam”(qayməqam – əski idarə təşkilatında idarə rəisinə verilən ad, sədrəzəmin vəkili), “katib” (katib – sarayın hərəm hissəsində yazı işlərinə baxan şəxs) və “mektubi” (məktubi – yazı işlərini idarə edən ən böyük məmur, özəl qələm müdiri), “ələmdar” (əskərlərin önündə bayraq aparan), “xəzinədar” (dövlətin xəzinəsinin mühafizəsindən və idarəsindən məsul olan), “peyk” və ya “bürid” (xəbər və məktub gətirib-aparma işinə baxan, poçtalyon), “pasban” (gecə növbə çəkən keşikçi), “müstahdem” (xidmətçi) və s. vəzifələrini icra edən şəxslərə dair məlumatlar da vardır. Bunlardan əlavə, şairin yaradıcılığında real həyatdan götürülmüş,müxtəlif təbəqələrdən olan şəxslərin bədii təsvirinə, meyxanəçi, gəmi ustaları və s. kimi obrazlara da rast gəlirik.

Nədimin “Divan”ında gündəlik həyat səhnələri içində tarixi şəxsiyyətlərlə yanaşı, anonim qəhrəmanların canlı təsvirinə də rast gəlirik. Bunlar İstanbulun müxtəlif yerlərində: Xəlicdə, Atmeydanında, Çubuqluda, Topxanada, Sadabadda, Kağıthanədə gəzən, Göksuda qayıqla gəzintiyə çıxan, “fıstıq rəngli atlasdan bayramlıq camələr, əlbisələr” geyinən, “nefti” (bambu şal – tərlətməyən, şəffaf olmayan, ütülənməsi lazım olmayan baş ötrüyü) və “gülpəmbə” (pambıq şal – çiçək ləçyi kimi çəhrayı rəng çalarlı, qırışmayan, nəfəsalıcı özəlliyə sahib baş örtüyü) şallı, “dik-dik” kəmərlər taxan “samur kürklü” canlı gözəllərdir. Bəzən bu sevgili bir “xristian gözəli” və ya “Əlcəzairli bir afət”, ağ qəba geyinmiş “hindli gözəl”, bəzən “çəngi gözəli”(Dəf çalıb- oxuyan və göbək ataraq rəqs edən qaraçı qızları), bəzən də sarı saçlı, mavi gözlü, ürkək baxışlı bir “nazənin”dir.

Nədimin “Divan”ında yaşanılan, görülən real həyatı və bu həyatın içindən olan canlı qəhrəmanlarla yanaşı, divan şeiri ənənələrinə uyğun mücərrəd obrazlara da rast gəlirik. Buna:

*Bərəkəllah, bərəkəllahbibədəl ziba əsər*
*Kim onu sadrı məkarim-pişetəşyid eylədi,* (*2, s.156)*

– beyti ilə başlayan, İbrahim Paşa tərəfindən təmir olunaraq yenilənən çeşməyə həsr olunmuş qitəni nümunə göstərə bilərik. Burada vaxtı ilə xoş günlər yaşamış, sonradan isə dağılaraq xarabaya dönmüş çeşmə mücərrəd obrazdır. Düşdüyü bu çarəsiz vəziyyətdən qurtulmağa çalışan bu İstanbullu çeşməni şair bir insan kimi belə danışdırır: *“Alçaq bəxtimin məni belə ümidsizliyə düçar etməsinə layiqəmmi? Keşmişdə hörmətli, dəyərli idim, indi isə fələk məni dağıdaraq xarabalığa çevirdi. Hər gələn tamaşa edib, məni qınayır. Düşmənin əli danlayaraq qulağımı bükür. Amma utanc dilimi bağlamışdır. Ətrafımda hər yer abad, mən isə dağılmış halda qalmışam. Hümmət ağası ilə aramızda nə oldu görəsən?”.*

Bunlardan əlavə, Nədim“soyuqdəymə xəstəliyinə düçar olan sərv”, “soyuqdan rəngi göyərmiş nilufər”, “zalım, qəddar soyuq, şaxtadan ayağı, əli donan çinar və axar su”, “uzun qış gecələrində səhərə qədər hekayə oxuyan bülbül” və s. mücərrəd obrazları təsvir edərkən İstanbul türkçəsinin danışıq dilindən, səmimi ifadələrindən istifadə etmişdir. Bu da Nədimin şeirlərinə canlılıq, dərinlik və ölməzlik qazandırmışdır.

Bütün bu obrazlar arasından Nədimin özü də bir lirik qəhrəman kimi qarşımıza çıxır.Nədimin lirik qəhrəmanı məhəbbətə keçici bir əyləncə kimi baxan, içkiyə, zövq və səfaya düşkün, həyatı, yaşamağı sevən, qəmdən, kədərdən uzaq dünyagörüşə malik bir obrazdır. O, duyğularını, arzularını, istəklərini bəzən açıq-aşkar, səmimi bir şəkildə dilə gətirməkdən belə çəkinmir. İstanbul gözəllərinin

vəfasızlığındanşıkayətçidir. Ona himayədarlıq edən İbrahim Paşaya minnətdardır və çox sevdiyi İstanbula heyrandır. Nədimin:

*Bır səfa bəxş edəlim gəl şu dili-naşada,*  
*Gedəlim, sərvi-rəvanım, yürü Sadabada.*  
*İşte üç çiftə qayıq iskələdə amadə*  
*Gedəlim, sərvi-rəvanım, yürü Sadabada,(2 ,s.245)*

– dördlüyü ilə başlayan şərqisində müəllif səlvi boylu sevgiliyə belə səslənir: *"Gəl bu kədərli könülə bir səfa bəxş edək. Sərvi boylum, gəl Sadabada gedək. Üç çiftə qayıq limanda hazır vəziyyətdə gözləyir. Gülək, oynayaq, dünyadan kam alaq. Yeni tikilmiş şeşmədənTesnim suyunu içək. Sonra əjdahanın ağzından abi-həyat, ölümsüzlük suyunun axmasına tamaşa edək. Sərvi boylum, gəl Sadabada gedək. Gah gedib hovuzun kənarında gəzək, gah gəlib Qəsri-Cinana heyranlıqla tamaşa edək, gah mahnı, gah da qəzəl oxuyaq. Sərvi boylum, gəl Sadabada gedək. Cümə namazına görə anandan icazə alıb, zalım fələkdən bir gün oğurlayaq. Limana doğru gizli yollardan dolanıb Sadabada gedək. Ey şux gözəl, əgər icazən olarsa,bir sən, bir mən, bir də gözəl səsli bir çalğıçı birgə Sadabada gedək. Dostları bir günlük unudub, birlikdə Sadabada gedək".*

Bütün bunlarla yanaşı, Nədimin bəzi problemləri və narahatlıqları da yox deyildir. İçki, səfa məclislərinə düşkün olan şairin Ramazan ayı vəziyyəti pərişandır, səbrsizliklə bu ayın bitməsini gözləyər. Göz ağrısı onu lap əldən salmışdır. Bu vəsiləiləSədrəzəm İbrahim Paşa üçün yazdığı mədhiyyədə hekayənin qəhrəmanı məhzNədim özüdür. Qəsidənin qısa məzmunu belədir: *"Əfəndimiz, Hatəm yaradılışlı sədr əzəm, sənin kimi bir vəzir bir də bu dünyaya gəlməz. Yaxşılıq ocağı, mərhəmət sahibisən. Sənə bağlı olanları görür və müşahidə edirsən. Nədimin də fəryadına bir an qulaq as. Mənim elə bir düşmənim var ki, ildə dir dəfə gələrək səbrsiz və dözümsüz vücuduma əziyyət edir. O kafir, baş bəlası mənə nə verdi ki, ala bilmir?Məni evdə həbs edərək pərişan vücuduma necə cəfalar çəkdirir. Sevgilinin üzünü görə bilməmək bir tərəfə qalsın, uca hüzuruna üz sürməyə də gedə bilmirəm. Bu günlərdə yenə gələrək məni əfəndimdən ayırdı. Onun əlindən çəkdiyim məşəqqətlər yazılacaq kimi deyil. Sultanım Allah səni hər zaman sevindirsin. Alçaq təbiətli düşmənim (xəstəlik) qəmdən qurtulmasın. Allah qəlbini ölkələr fəth etməklə sevindirsin. Bir tərəfdən Çerağan səfasında, bir tərəfdən də donanma əyləncəsində zövq və səfa edəsən. Əfəndimiz, bəhs etdiyim,göz ağrısı dedikləri o düşmən çox zalımdır. Onu bir daha görməyim deyə ulu Tanrıya sığındım. O zalım düşmən Sənin səadət dolu düvründə keçirdiyim gözəl günlərin hesabını məndən bir-bir alır. Cox şükür onun səfa əlindən bir fürsət taparaq qaçıb ədalətli hüzuruna şikayətə gəldim. Ey göylər, səma qədər uca əfəndim, Bu xəstəlik məni çox ağladıb inlətdi. Məni bir iltifatınla güldür, sevindir. Ey xeyirxah, gözümün ağrısı keçincə o uca qapına "Eyni tarixi" tərcüməsini etmədən heç gələrəmmi?! Allahdan ümidim budur ki, ayaq tozuna üz sürə bilim. Çünki bu lütfün ağlayıb, inləyən Nədim üçün məhz şəfanın özüdür".*

**Nəticə**

Göründüyü kimi, Nədim şeirləriylə o dövrün sosial həyatı ilə əlaqədar oxucuda geniş və dölğun təsəvvürlər yaradır. Onun canlandırdığı mənzərə çox geniş və rəngarəngdir. Sənət və əyləncə aləmində, dövlət dairələrində və s. yerlərdə qarşısına çıxan hərkəsi o, böyük istedadı sayəsində zəngin xəyal dünyasından ilham alaraq şeirlərinə daxil edir. Bu səbəbdəndir ki, Nədim "Divan"ını incələyərkən fərqli zümrələrdən və çox müxtəlif təbəqələrdən olan obrazlarla qarşılaşırıq.

## ƏDƏBİYYAT:


1. Ziya Yusif. (1932) Nədim. İstanbul, Semih Lütfi Yayınevi.
2. Macıt Muhsın, (2012 ) Nedım Dıvanı, Ankara.
3. Bayraktar Nimet. (1982) Şemsi Ahmet Paşa: Hayatı ve Esrleri. Tarih Dergisi, Fatih Sultan Mehmed`e Hatıra Sayısı, Mart, XXXIII: 99-114
4. Pakalın Mehmet Zeki (1983) Osmanlı Tarih Deyimleri ve Terimleri Sözlüğü, İstanbul, cilt III.
5. Kortantamer Tunca. (1985) Nedimin Şiirlerinde İstanbul Hayatından Sahneler, İzmir, Türk Dili ve Edebiyatı Araştırmaları Dergisi IV.
6. Tektaş, Nazım (2002) Sadrazamlar, İstanbul, Çatı Kitapları.
7. Sevgi Ahmet; Özcan Mustafa, (1996) Prof. Ali CanibYöntem`in Eski Türk Edebiyatı Üzerine Makaleleri, Sözler Yayınları.
8. Gölpınarlı Abdülbaki (1951), Nedim Divanı, İstanbul, İnkilap Kitabevi.
9. Özkan Ömer. (2007) Divan Şiiri Penceresinden Osmanlı Toplum Hayatı, İstanbul, Kitabevi Yayınları.
10. Onay Ahmet Talay (1996) Eski Türk Edebiyatında Mazmunlar ve İzahı, M.E.B.


## РЕЗЮМЕ

***Айгюн ЮСУБОВА***

### *Системаобразов в "Диване" Недима*

***Ключевые слова:*** *Недим, поэтдивана, образы, султан, садразам*


Двенадцатилетний период (1718-1730 гг.), вошедший в историю Османской империи под названием «Эпохой тюльпанов», приходится на второй этап правления султана Ахмеда III (1703-1730 гг.). После Пожаревацкого (Пассаровицкого) мирного договора, подписанного между Австрией и османскими государствами 21 июля 1718 года Дамадом Ибрагим-пашой, садразамом того времени, холодные отношения с Западом, унаследованные от прошлых столетий, начали постепенно теплеть. Эпоха тюльпанов — это исторический этап в истории Османской империи, когда создавались и развивались политические, экономические и культурные связи с Европой. Таким образом, хотя новшества в соответствии с требованиями времени были привнесены практически во все сферы жизни, классические и традиционные ценности были сохранены, а в изобразительном искусстве инновации вносились в рамках традиций. В этот период, как во внешней, так и во внутренней политике Османского государства господствовала стабильность. Ахмед Недим – поэт жанра диван, чье творчество символизирует период, когда турецкое искусство и художественный вкус получили дальнейшее развитие и адаптировались к западным традициям.

Рассматривая «Диван» Недима, мы встречаем образы, принадлежащие к разным категориям. Большинство типов людей, которые мы наблюдаем в *касӣда*х и коротких стихотворениях (*кит῾а*) поэта –это исторические личности. Отметим также, что по образам, отображенным в традиции турецкой литературы дивана, мы наблюдаем, что он создал очень богатую галерею образов, начиная от представителей дворцовой знати и придворных, считающихся высшим классом общества, до чиновников, принадлежащих к среднему классу, и даже придворных музыкантов, шейхов тарикатов и поэтов того времени.

## ABSTRACT

***Aygun YUSUBOVA***

***The System of Characters in Nedim's Diwan***

**Keywords:** *Nedim, Diwan Poet, characters, Sultan, Grand Vizier*

The period titled the Tulip Era (1718–1730) of Ottoman history corresponds with the second period of the reign of Sultan Ahmed III. After the Grand Vizier of the period signed the Treaty of Passarowitz on the 21st of July, 1718, which defined the relations between the Austrian and Ottoman Empires, the cold relations between the West and the Ottoman Empire began to warm. The Tulip Period is a historical period when political, economic, and cultural relations between the Ottoman Empire and Europe were shaped and developed. In this period, almost all spheres of life were renewed in accordance with the requirements of time, while classical and traditional values were preserved and innovations in the arts were limited to the borders of traditions. Stability in internal as well as foreign policy is the main character of the period. Turkish art and artistic delight developed further into compliance with Western traditions, while the new Diwan poet Ahmet Nedim became popular.

The study in Nedim's Diwan draws attention to various characters belonging to different classes. Especially in the eulogies and quatrains of the poet, the human characters described in the works are mostly historical personages. Notably, characters depicted within the traditions of Turkish Diwan literature mostly belong to the high hierarchy of society: notables of the palace, officials from the middle class, palace musicians, leaders of religious orders, and poets of the period, which create as a whole and present a rich gallery of characters.